## KİNO, TELE VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

**UOT 791.43**


***Murad Əmiraslanov***
***Bakı Xoreoqrafiya Akademiyasının dissertantı***
***AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov 75***
***E-mail:***: **rafiqoglu89@mail.r**


# DRAMATİK OBRAZLAR AKTYORU HAMLET XANIZADƏ PORTRETİ


**Xülasə:** Bəşər tarixində həqiqi sənət üçün doğulmuş insanlar kifayət qədərdir. Belə şəxslər, həqiqətən də, fiziki və daxili gözəlliklərinə görə, səhnə ölçülərinə cavab verə biləcək bir insan şəklində dünyaya gələn fərdlər, şəxsiyyətlərdir. Azərbaycanın, eləcə də, dünyanın ən məşhur sənət xadimlərinin daxili və mənəvi dünyasında, zahiri görkəmində tamaşaçını cəlb edən və onun tələbatına cavab verən gözəlliklər öz əksini tapmışdır. Bu baxımdan məqalədə Hamlet Xanızadənin teatr və kino sahəsində sənət yolu tədqiqata cəlb edilmişdir.



**Açar sözlər:** dramaturgiya, dramaturq, teatr, tarixi dram, teatrşünaslıq,milli xarakter.


Hamlet Xanızadə sənətindən söz açarkən, onun teatr həyatını vərəqləməklə kifayətlənmək qeyri-mümkündür. Bu baxımdan ki, Hamlet Xanızadənin sənət yolu teatr və kino aləmi ilə bərabər olmuşdur. Sənətin iki növündə teatr və kino sahəsində çalışan aktyor potensial qüvvəsini hər sahədə işıqlandırmağı sənətkarlıq borcu kimi qiymətləndirir. Hamlet Xanızadə yaratdığı obrazları bir portret kimi tamaşaçıya təqdim edirdi. Bütün boyalarını olduğu tək qəhrəmanında canlandırırdı. Onun yaratdığı qəhrəmanlar tamaşaçının hər zamanın problemləri ilə yaxından tanış edir, insanın mənəvi-əxlaqi keyfiyyətlərinin bütün dəyərlərdən yüksəkdə olduğunu göstərirdi.

Hamlet Xanızadə 1941-ci ildə dünyaya gəlmiş, orta məktəbdə oxuduğu zamandan sənətə böyük meyl etmişdir. Ələsgər Ələkbərov, Abbas Mirzə Şərifzadə İsmayıl Hidayətzadə, Səməd Mərdanov, Mustafa Mərdanov, Ağasadıq Gəraybəyli, Ağadadaş Qurbanov və başqa sənətkarların sənət məktəbini əxz edərək, belə bir

zəngin təcrübədən bəhrələnən Hamlet Xanızadə orta məktəbi bitirdikdən sonra Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna (indiki Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti) daxil olur. O, burada oxuduğu müddətdə nəzəriyyə zamanı əldə etdiyi uğurları təcrübədə reallaşdırmağa başladı. Belə ki, onun sənət yolu hələ tələbə ikən Akademik Milli Dram Teatrından başladı.1964-cü ildən ömrünün sonuna qədər Hamlet Xanızadə bu teatrda çalışmış, rejissorların diqqətini cəlb etmişdir. Qeyd edək ki, sənətkar 1965-ci ildə institutu bitirmişdir. O, qeyd olunan teatrda Azərbaycan və dünya klassikasının ən mükəmməl nümunələrində əsas baş rolların ifaçısı olmuşdur.

Səhnədə uzun illər təcrübə keçmiş aktyorlarla çiyin-çiyinə çalışan gənc aktyora tapşırılan hər bir obrazın öhdəsindən uğurla gələrək, professionallıq nümayiş etdirib, böyük sevgi qazanmışdır. Demək olar ki, Hamlet Xanızadə sənətə gəldiyi ilk günlərdən ömrünün sonuna qədər əsas rolların ifaçısına çevrilmişdir. Onun gözəl səs tembri, danışıq intonasiyası, səhnə görkəmi, jest və mimikasıHamlet Xanızadənin gözəl, xarakterik obrazların yaradıcısı olmasına imkan vermişdir. Yaratdığı hər obrazda özünü tapan qəhrəmanın fərdi cizgilərini daxilindən keçirirək, tipikləşdirən Hamlet Xanızadə obraza yeni bir həyat verərək, onu tamaşaçısına sevdirib, qəhrəmanının psixologiyasına məxsus olan mənfi və müsbət cəhətləri səmimi bir şəkildə təqdim etmişdi. Azərbaycanın yüksəkdə duran sənətkarları sırasında adının hallanmasına nail ola bilmişdir. Hamlet XanızadəVilyam Şekspirin "Fırtına", Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı", Səməd Vurğunun "Vaqif", Hüseyn Cavidin "İblis", "Xəyyam", İlyas Əfəndiyevin "Atayevlər ailəsi", Nazim Hikmətin "Şöhrət və ya unudulmuş adam" və sair tamaşalarda olduqca maraqlı obrazlar yaratmış və bu rollar zaman ötsə də, onlara möhrünü vurmuş sənətkarın adı ilə hallanır. Onun İblis obrazı olduqca orijinal bir şəkildə yaradılmış həqiqi sənət əsəri idi. Bu obraza Hamlet Xanızadədən sonra ikinci səhnə həyatı vermək və canlandırmaq olduqca məsuliyyətli idi. Çünki Hamlet Xanızadə obrazın dərin qatlarını, insan xislətində yatan, daim ətrafdakıları xəbis əməlləri ilə məhv etməyə çalışan İblisin görünməyən tərəflərini tamaşaçıya açıb-göstərməklə, bəşəriyyəti ölümə sürükləyən məhz belə simaların əməllərini bir növ xarakterizə etmişdir. İblisə olan münasibəti kəskin bir şəkildə formalaşdırmağı bacarmışdır. İblis nədir? Cümlə xəyanətlərə bais, hər kəsə bais olan insan nədir? İblis! (2) Öz-özündən doğan sual və İblisə verilən qiymət sənətkarın dili ilə səhnədə o dərəcədə parlaq bir şəkildə ifadəsini tapırdı ki, tamaşaçı uzun illər öz dünyasında yaşatdığı və bir obraz kimi canlandırdığı İblisin surətinin sanki reallığının şahidinə çevrilirdi. Hamlet Xanızadə yaratdığı bütün obrazları məhz bu şəkildə tamaşaçıya təqdim edirdi. Onun Azərbaycanın görkəmli şairləri olan Nizami Gəncəvinin, Molla Pənah Vaqifin obrazlarının səhnədə müdrik bir şəkildə əks etdirilməsi aktyorun milli dəyərlərimizə olan məhəbbətini, sənət tariximizin müəyyən mərhələlərinə dərindən bələd olmasını təsdiqləyən amildir. Eləcə də,"Dəli yığıncağı"nda yaratdığı obraz cəmiyyətdəki mənfilikləri əks etdirən və insanları bu şəkilə salan problemləri aktyor potensialından istifadə edərək canlandırılması Hamlet Xanızadənin sənət eşqinin alovunu bir daha təsdiqləyir və aktyorun şəxsiyyətindəki vətənə məhəbbət, insanlara olan sevgisini izhar edirdi.

Hamlet Xanızadənin teatr səhnəsində oynadığı şah əsərlərdən biri Hüseyn Cavidin «İblis» əsəridir. Hüseyn Cavidin yaradıcılığında 1918-ci ildə yazdığı «İblis» faciəsi xüsusi yer tutur. Hüseyn Cavidin ən qüvvətli əsərlərindən biri olan «İblis» birinci imperialist müharibəsi əleyhinə yazılmışdır. Şair dramaturq Hüseyn Cavid müharibə nəticəsində insanları mənəvi cəhətdən şikəst edən amilləri göstərmişdir. «İblis» romantik faciə olsa da, müharibənin doğurduğu vəziyyətin və əhvali-ruhiyyənin ümumiləşmiş bədii ifadəsidir. Hüseyn Cavid «İblis» faciəsində birinci imperialist müharibəsinin törətdiyi dəhşətli, insan mənəviyyatının pozulması səbəblərini, bədii ümumiləşdirmələr fonunda təsvir etmişdir.

«İblis» faciəsi səadəti altun, silah və zorakılığın vəhdətində görən bir cəmiyyətin ictimai faciəsini əks etdirən bitgin bir sənət əsəri kimi ədəbiyyatımızın klassik fonduna daxildir. Əsərin 20-ci illərdə tamaşaya qoyulması, mədəniyyət və teatr aləmində böyük ədəbi-ictimai hadisəyə çevrilmişdir.

«İblis» əsəri Hüseyn Cavidin şah əsəridir. Dramaturqu faciədə ayrı-ayrı şəxsiyyətlərin taleyi maraqlandırmır. Müəllif ümumiyyətlə insanların, bəşərin taleyini düşünmüşdür.

Faciə İblislə Mələk arasındakı mübahisədən ibarət ekspozisiya ilə başlayır. Mələk insanlar haqqında müsbət fikirdədir. İblis isə nahaq axan qanların əsl səbəbini məhz insanlarda görür.

«İblis» faciəsində həm də dərin bir istehza vardır. Bu istehzanın hədəfi isə mistik-dini görüşlərdir ki, Arifin «Fəlsəfəsində» təzahür edir. İblisin kinayəli gülüşü ifşaedicidir. Bu onu göstərir ki, İblisin istehza ilə nifrət obyekti geniş olduğu kimi həm də çox mürəkkəbdir. (3)

«İblis» faciəsində insana, məzlum bəşərə böyük bir məhəbbətdə vardır.

Hüseyn Cavid İblisi donmuş həyat hadisələriniehkam kimi qəbul edənrəmzi surət olaraq vermir. Faciənin əvvəlində İblis bütün insanları fəlakətin səbəbkarı kimi tanıyırsa, finalda öz əvvəlki fikrini daha da dəqiqləşdirir, ifşa obyektini konkretləşdirir.

Faciənin əsas surətlərindən biri İblisdir. Hüseyin Cavidin bu surətdən bir vasitə kimi istifadə etməkdə məqsədi, insanların eybəcərləşməsinə səbəb olan ictimai mühiti daha kəskin şəkildə tənqid və ya ifşa edə bilməkdir. Hamlet Xanızadə bu obrazın içinə girmiş və tamaşaçılara insan içində iblisi məharətlə göstərə bilmişdi.

«İblis» faciəsindəki İblis (Hamlet Xanızadə) bitgin, mürəkkəb xarakterə malikdir. Arif və onun həmfikirlərinə görə İblis baş verən bütün cinayətlərin, eybəcərliklərin səbəbkarıdır. Əslində isə Hüseyn Cavidin «İblis»i ictimai mühitin, mövcud quruluşun qəbahətlərin tənqid və ifşa olunmasına xidmət edən rəmzi surətdir. Məhz bu cəhətdəən İblis haqqında olan anlayışlara xüsusi diqqət yetirmək lazımdır.

Hüseyin Cavid əsər boyu iki iblisi qarşılaşdırır. Biri geniş kütlənin zehnində yaşayan, dini əfsanəyə görə Allah dərgahında qovulan «Mələk»dir ki, «lənət»lə yad edilir. Digəri isə həyatda yaşayan «İblis»dir. Dramaturq incə bir üsuldan istifadə edir. O, yazıq və kimsəsiz, bəşərin bilmədən kimə «lənət» yağdırdığını söyləyir və kəskin bir etirazla həyatda yaşayan İblisin, namus və vicdanla yaşayan bəşərin taleyi ilə əylənən İblisin əsl simasını səciyyələndirir.

Dramaturq bu qənaətə gəlir ki, İblislik artıq dünyanı bürümüş, mənfur və mürtəce bir qüvvəyə çevrilmişdir.

Faciənin sonunda kütlə İblisi məhv etmək istəyir. Lakin bu bir arzu olaraq qalır. Ancaq oxucu hiss edir ki, İblisin bu «fəaliyyəti» çox davam etməyəcək. Vaxt olacaq ki, İblis insanların qarşısında diz çökəcəkdir. İblisi məhv etmək o qədər də asan bir iş deyil, çünki onun hələ mənəvi, maddi cəhətdən qüvvət aldığı ictimai varlıq hökm sürürdü.

Abdulla Şaiq yazır: «İblis həyatın bütün dərinliklərinə girmiş,onu uzun müddət müşahidə və təcrübələrdən keçirmiş; həyat və təbiytində hər şeyi təbəddülata uğradığından sabit bir ideal, əbədi bir səadət, inanmış bədbin bir simadır». (1)

Yuxarıda dediklərimizdən belə qənaətə gəlmək olar ki, «İblis» faciəsi imperialist müharibəsinin dəhşətlərini bədii ümumiləşdirmələrlə təsvir edən sənət əsəridir. Dramaturq rəmzi surət olan İblisin vasitəsilə insan mənəviyyatını korlayan əsas amilləri göstərmiş və cəmiyyətin əsas qüvvəsi olan həyati iblislərin pis əməllərini, qeyri insani hərəkətlərini böyük ustalıqla ifşa etmişdir.

Azərbaycan kino və teatr sənəti tarixinə yaratdığı qəhrəmanlarla öz portretini əbədi olaraq həkk edən Hamlet Xanızadə, yaşadığı ömür yolunda bir sənətkar ömrünə sığmayan sənət qalereyası yaratdı. Olduqca mükəmməl, müdrik obrazlar qalareyası. Bu qalareyanın hər bir nümunəsinə diqqət yetirdikcə Hamlet Xanızadənin aktyorluq üçün yaranmış siması göz önündə canlanır. Həyata biraktyor kimi qədəm qoyan Hamlet Xanızadə sənətdə özünü necə təsdiqlədisə də, yaşadığı mühitdə şəxsiyyət olaraq imzasını qoydu.

**Ədəbiyyat:**


1. Abdulla Şaiq // «Maarif və mədəniyyət» jurnalı. Bakı, 1925, №2
2. Cəfər M. Hüseyin Cavid. Bakı: Azərnəşr, 1960, səh. 123
3. Arif M.. Ədəbi tənqidi məqalələr. Bakı: 1958, səh. 89
4. Cəfər M. Hüseyin Cavid. Bakı: 1960, səh.246
5. Kirmanşahlı M.C. «İblis»// “Kommunist” qəzeti, 9 aprel, 1925
6. Məmməd Arif. Ədəbi-tənqidi məqalələr. Bakı: 1958, səh. 86
7. İlham Rəhimli. Füzuli meydanında sənət məbədi. Bakı: 1996
8. İlham Rəhimli. Azərbaycan teatr tarixi. Bakı: Çaşoğlu-2007
9. İnqilab Kərimov. Azərbaycan teatrı-125.



**Мурад Амирасланов**


**Портрет исполнителя драматических образов Гамлета Ханызаде**

**Резюме**


История знает многих личностей, посвятивших свою жизнь подлинному искусству. История культуры и искусства Азербайджана не

исключение. В данной статье исследуется жизнь и творчество талантливогоактера театра и кино Азербайджана Гамлета Ханызаде.

**Ключевые слова:** драматургия, драматург, театр, историческая драма, национальный характер.

**Murad Amiraslanov**

**The portrait of actor Hamlet Khanazadeh in dramatic characters**

**Summary**

In the history of human beings, there are many people born for true art.Such individuals are really individuals and personalities born in the form of a human being capable of responding to the dimensions of the scene according to their physical and internal beauty.The beauty of Azerbaijan attracts the audience and reflects the beauty of its inner and spiritual world. This article studies the life and work of talented actor of theatre and cinema of Azerbaijan Hamlet Khanizadeh.

**Keywords**: drama, dramatist theatre, historical drama, theater studies, national character.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.03.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.04. 2018Məqalənin çapa qəbul olunma tarixi: 27.04.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Amin Novruzov**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**